# DİLÇİLİK

**SVETLANA MƏMMƏDOVA**
**ADPU**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**sveta@mail.ru**

## İNGİLİS DİLİNDƏ SUFFİKSLƏRİN TƏHLİLİ

**Açar sözlər:** suffiks, ingilis dili, morfologiya, isim, sifət, məhsuldar, qeyri-məhsuldar
**Ключевые слова:** суффиксы, английский, морфология, существительное, прилагательное, продуктивный, непродуктивный
**Keywords:** suffix, english, morphology, noun, adjective, productive, non-productive

Dilçiliyin özünün bir elm kimi inkişafı mədəniyyətin inkişafından xəbər verir. Bütün elmlər mədəni inkişafın nəticəsidir. Onların hamısı bu və ya digər dərəcədə mədəniyyətin inkişafına xidmət edir. Mədəniyyətin elə bir sahəsi yoxdur ki, orada dildən istifadə edilməsin.

Tətbiqi dilçiliyin tərcümə nəzəriyyəsi dünya elm və ədəbiyyatı ilə tanış olmaq üçün lazım olan tərcümə işlərini düzgün istiqamətləndirir və onun elmi - metodoloji əsaslarını hazırlayır.

Xarici dillərin öyrənilməsində də dilçilik əvəzsiz rol oynayır. Məlumdur ki, dili iki yolla öyrənmək mümkündür. Birinci, dilin öz qrammatik quruluşundan öyrənilməsidir. Xarici dili həm mükəmməl elmi əsaslarla, həm də qrammatika vasitəsilə öyrənmək üçün dilçilik problemlərini yaxşı bilmək lazımdır.

Ana dilinin təbii materialının əsasında xarici dili öyrənmək üçün dilçiliyin müqayisə - tutuşdurma metodundan istifadə etmək lazımdır. Dilçiliyin bu metodundan istifadə edilməsə, Azərbaycan auditoriyasında xarici dili tədris etmək mümkün olmaz. Tutuşdurma - qarşılaşdırma hesabına yeni sözlər lüğət tərkibini zənginləşdirir.

Müasir dövrdə xarici dilçilikdə dilin tədqiqində istifadə olunan metodlara görə bir sıra cərəyanlar yaranmışdır. Hal-hazırda bu cərəyanların müxtəlif ölkələrdə dil faktlarının öyrənilməsində öz xüsusi tədqiqat metodları vardır. Onlar müəyyən tarixi inkişaf, təkmilləşmə dövrünə malikdir. Bir çox alimlər sözlərin şəkilçiləşmə prosesini izah edərkən göstərirlər ki, tam mənalı sözlər əvvəl köməkçi sözlərin yerinə keçir və nəhayət, söz kimi

yaşamaq xüsusiyyətini itirdikdən sonra qrammatik funksiya daşıyan bir ünsürə çevrilir və şəkilçiləşir. Bu gün aksioma kimi qəbul edilən bu hökmün doğruluğunu göstərən bir sıra faktlara dilmizdə də təsadüf edilir. Bu onu göstərir ki, dildə vaxtilə müstəqil söz kimi işlənmiş və indi köməkçi söz olaraq işlədilən bir sıra sözlər şəkilçiləşməyə doğru inkişaf etməkdədir.

Şəkilçilər, xüsusilə söz yaradıcılığı prosesində iştirak edən şəkilçilər, ancaq sözlərin əvvəlcə köməkçi söz yerinə keçməsi və sonra da şəkilçiləşməsi yolu ilə deyil, eyni zamanda, mürəkkəb söz tərkibində olan sözlərdən birinin öz fonetik tərkibini dəyişərək, müstəqilliyini itirməsi yolu ilə əmələ gəlmişdir. Beləliklə, qəti demək olar ki, morfoloji üsulla sözlərin əmələ gəlmə prosesi sintaktik üsulla olan bu prosesin davamı olub, ondan törəmiş və sonra meydana gəlmişdir. Bununla belə, morfoloji yolla sözlərin əmələ gəlmə prosesi öz mənşəyinə bağlı olaraq məhdud bir dairədə qalmamış, olduqca inkişaf etmişdir. Müasir dildə bu prosesin özünəməxsus çox zəngin, istər semantik, istərsə də formal xüsusiyyətləri meydana gəlmişdir. Ona görə də, morfoloji yolla sözlərin əmələ gəlmə prosesini dürüst başa düşmək üçün onun ən abstrakt ünsürünü təşkil edən şəkilçilərin həm ümumi, həm də ayrı-ayrı nitq hissələri üzrə olan aləmini, ruhunu öyrənmək, məna və şəkil etibarilə qruplaşmalarını bilmək lazım gəlir.

Məlum məsələdir ki, morfoloji yolla sözdüzəltmə prosesində əsas rol oynayan abstrakt ünsürlərin - şəkilçilərin ümumi cəhətlərini bilmədən, onların xüsusi cəhətlərini, hər nitq hissəsinə xas olan əlamətlərini və nəhayət, hər şəkilçinin spesifik xüsusiyyətlərini bilmək qeyri-mümkündür. Bunların ümumi cəhətlərini isə belə bir bölgüdə tədqiq etmək olar: (4)

1. Leksik və ya qrammatik əlamətlərin görə;
2. Məhsuldarlığına və qeyri-məhsuldarlığına görə;
3. Törəmə yollarına görə;
4. Fonetik xüsusiyyətlərinə görə;
5. Məna ardıcıllığına görə.

İstər morfoloji yolla söz yaradıcılığında iştirak edən şəkilçilər, istərsə də dilin qrammatikasını əmələ gətirən şəkilçilər sözdən ayrıldıqda işlənməmək, təklikdə bir leksik vahid olmamaq (bir məfhum ifadə etməmək) və sözlərə bitişik yazılmaq etibarilə ümumi xarakterə malikdir. Lakin dildə işlənən şəkilçiləri diqqətlə nəzərdən keçirdikdə onların öz fünksiyaları etibarilə müxtəlif qruplara ayrıldığını dərhal hiss edə bilirik. Bunlardan bir qismini sözdüzəltmə prosesi ilə əlaqələndirərək sözdüzəldici şəkilçi, ikinci qismini qrammatika ilə əlaqələndirərək sözdəyişdirici şəkilçi adlandırmışlar.

Belə bir bölgü isə şəkilçilərin əsl mahiyyətini, onların əsas funksiyalarını və bütün semantik xüsusiyyətlərini meydana çıxara bilmədiyi kimi, leksika ilə qrammatika arasındakı tərkibi əlaqə və münasibəti də tamamilə

açа bilmir. Ona görə də dilin leksik cəhətini almadan, onun qrammatik quruluşunu öyrənmək qeyri - mümkündür.

Sözdüzəldici şəkilçilərin köklərə təsiri və sözün məzmununu dəyişdirmək etibarilə eyni xüsusiyyətə malik olmadığını, yeni bəzi sözdüzəldici şəkilçilərin yeni-yeni məna əmələ gətirmə xüsusiyyətinə malikdir. Lakin sözdüzəldici şəkilçilərin bu xüsusiyyəti onların bir nitq hissəsindən eyni və ya başqa nitq hissəsi əmələ gətirə bilməsi ilə izah olunur ki, bu da məsələnin əsas mahiyyətini açmaq üçün kifayət d e y i l.

Leksika ilə qrammatikanın qarşılıqlı münasibətini, dilin qrammatik sistemində leksikanın əsas yer tutduğunu nəzərə alaraq hər iki sahənin quruluşunda böyük rol oynayan şəkilçiləri əsas dörd qrupa ayırmaq olar: (5)

1. leksik şəkilçilər;
2. leksik-qrammatik şəkilçilər;
3. qrammatik-leksik şəkilçilər;
4. qrammatik şəkilçilər.

Birinci qrupa, malik olan şəkilçilər ancaq müəyyən məfhum ifadə edən leksik vahidlərin düzəlməsində iştirak edir və sözlər arasında qrammatik əlaqənin yaranmasına heç bir təsir göstərə bilmir.

İkinci qrupa mənsub olan şəkilçilər müəyyən məfhum ifadə edən yeni leksik vahidlər əmələ gətirməklə bərabər, bu vahidlərin başqa sözlərlə qrammatik əlaqəyə girməsi tələbini də özündə əks etdirir.

Üçüncü qrupa mənsub olan şəkilçilər artırıldığı sözlərdə əsasən müəyyən qrammatik kateqoriyaya mənsub olan məna bağları əmələ gətirdiyi kimi, eyni zamanda yeni bir məfhum ifadə etməyə də meyl göstərir.

Dördüncü qrupa mənsub olan şəkilçilər artırıldığı sözlərdə ancaq bu və ya digər qrammatik kateqoriyanın funksiyasını yerinə yetirir. Bu qrupa ismin hal şəkilçilərini və şəxs sonluqlarını əlavə etmək olar.

Qeyd etmək lazımdır ki, bu qrupa mənsub şəkilçilərin ayrı-ayrı nitq hissələrində özlərinə məxsus fərqlənmə cəhətləri və qoşulduğu sözlərin semantikasından, bu sözlərin cümlə daxilində tutduğu yerindən asılı olan xüsusiyyətləri vardır.

Leksik və leksik-qrammatik şəkilçilərdən bəziləri ancaq ismə və bəziləri ancaq felə aid olduğu halda, bəzi şəkilçilər isim, sifət və saylara da aid ola bilir.

Bundan əlavə həmin şəkilçilərin bəzisi eyni nitq hissəsi daxilində yeni məfhum ifadə edən söz yaradırsa, bəzisi bir nitq hissəsindən başqa nitq hissəsinin yaranmasına xidmət edir. Bəzi şəkilçilər isə müxtəlif nitq hissələrini əmələ gətirir.

Leksik və qrammatik xüsusiyyətlərə görə şəkilçilərin bu cür qruplaşması, eyni zamanda hər qrupa mənsub şəkilçilərin özlərinə məxsus məna cəhətləri, sözlərin semantikası ilə olan münasibəti, nitq hissələrinə görə

təsbiti və nəhayət, bu və ya digər qrupa mənsub şəkilçilər arasındakı məna bağlılığı (birinin digərinə keçməsi) bir dil sistemi əmələ gətirməklə leksika ilə qrammatika arasında olan yaxınlığı və sıx əlaqəni aydın göstərir.

Morfoloji yolla söz yaradıcılığı prosesində iştirak edən bütün şəkilçilər özlərinin yeni-söz yaratma bacarığına görə eyni deyildir. Bəzi şəkilçilər müxtəlif sözlərə artırılaraq, bir çox yeni sözlər əmələ gətirdiyi kimi, bəzi şəkilçilər məhdud sözlərə artırılaraq az miqdarda yeni sözlər əmələ gətirir. Odur ki, çox söz əmələ gətirə bilən şəkilçiləri məhsuldan az söz əmələ gətirə bilən şəkilçiləri isə qeyri-məhsuldar adlandırmaq olar.

Qeyri-məhsuldar şəkilçilər öz söz yaradıcılığı dairəsinin dar və genişliyinə görə müxtəlifdir. Buraya bir söz yaradan şəkilçidən başlanmış bir sıra söz yarada bilən şəkilçiləri daxil etmək olar. Qeyri-məhsuldar şəkilçilərin bəzisi başqa dillərdən keçmiş və hələ müasir ədəbi dildən çıxmaqla olan şəkilçilərdir. Burada, xüsusilə bir və ya iki söz əmələ gətirə bilən şəkilçilər, dilin inkişaf tarixi nöqteyi- nəzərindən diqqəti daha çox cəlb edir.

Şəkilçilərin leksik və qrammatik xüsusiyyətləri, eyni zamanda məhsuldar və qeyri-mehsuldarlığı ilə əlaqədar olan mühüm məsələlərdən biri də onların mənşəyi məsələsidir. Məlumdur ki, bizim üçün dildə olan bütün şəkilçilərin ayrı-ayrılıqda mənşəyini müəyyənləşdirmək və onun inkişaf xəttini aydınlaşdırmaq çətin və bəlkə də qeyri-mümkündür. Çünki şəkilçilərin tarixi dilin qədim və ən qədim dövrləri ilə bağlı olub, uzun bir inkişaf yolu keçmişdir. Bunlar haqda qəti fikrə gəlmək və düzgün mülahizələr yürütmək üçün əldə ən uzaq əsrlərə aid dil materialının mövcud olması lazım gəlir. Odur ki, burada tək-tək şəkilçilərin mənşəyi məsələsindən deyil, müasir dildə işlənən şəkilçilərin ümumiyyətlə mənşəyindən bəhs edilir.

Söz yaradıcılığında iştirak edən şəkilçilər öz mənşələri etibarilə çox mürəkkəb bir sistemə malikdir. Bununla belə bu mürəkkəb sistemin müqayisə yolları ilə tədqiqi onların mənşəyi və qruplaşdırılması haqqında müəyyən bir fikir söyləmək üçün imkan yaradır. Şəkilçilərin ümumi xüsusiyyətlərində mühüm yer tutan əsas amillərdən biri olan, onların məhsuldar və qeyri-məhsuldarlığı məsələsidir.

İngilis dilinin məhsuldar şəkilçiləri yeni söz yaradılmasında fəal iştirak edir.

Bu şəkilçilər xüsusi əhəmiyyət kəsb edir.

Müasir ingilis dilində sifət düzəldən şəkilçilər isim düzəldən şəkilçilərə nisbətən daha rəngarəng və çoxcəhətlidir. İngilis dilində sifət düzəldən şəkilçilər latın və fransız mənşəli şəkilçilərə nisbətən azdır. Müasir ingilis dilində şəkilçilər vasitəsilə müxtəlif nitq hissələnndən sifət əmələ gələ bilər. Suffikslər sifətlərin hansı qrammatik sinfə mənsub olduqlarını göstərir.

İngilis dilində sifət düzəldən şəkilçilərdən ən məhsuldarları aşağıdakılardır: (2)

- *able, al, -(ial), -an(ian), -ed, -ic, -y, -ish, -ine, -less, -ly, -ous.*

İndi biz düzəltmə sifətlərin ən məhsuldar olanlarından bir neçəsinin təhlilini verməyə çalışacağıq.

**-** *able, (-ible, -ble)* - suffiksi fransız mənşəlidir. Əksər şəkilçilər kimi bu şəkilçi də müxtəlif nitq hissələrinə, xüsusilə də fellərə əlavə olunmaqla sifət əmələ gətirir və məhsuldar şəkilçiyə çevrilir. Məsələn:

1. He thought himself so much better than anyone else, it was laughable (Painted Veil, p.49).

2. "That's a very reasonable explanation, she said lightly (Painted Veil, p. 33).

Yuxarıda verilmiş misallardan göründüyü kimi **-** *able* şəkilçisi çox məhsuldardır və kökdən asanlıqla ayrılır. Məsələn: *punishable (to punish), admirable (to admire), agreeable (to agree), acceptable (to accept)* və s.

*ible* – şəkilçisi isə məhsuldar deyil. İngilis dilində mövcud olduğu zamandan heç bir sifət əmələ gətirməyib. Bu şəkilçi dildə həmişə bir nitq hissəsi kimi sifətin əlamətini bildirib. Bu şəkilçiyə adətən fransız mənşəli sözlərdə rast gəlmək olar. Məsələn: It has been a great comfort to us during this time of so terrible trouble (Painted Veil, p. 119).

*-ful* - suffiksi ingilis dilinə *ful* sifətindən keçib və qədim ingilis dilində ancaq isimdən sifət əmələ gətirir və hal-hazırda da müasir ingilis dilində qorunub saxlanılıb. Orta dövrlərdən başlayaraq bu şəkilçi fellərdən də sifət düzəltməyə xidmət edib. Məsələn*: forgetful,mournful,resenful.*

Orta dövrlərdə bu şəkilçi demək olar ki, ancaq ingilis dilindəki isimlərə birləşib. Sonradan *-ful* şəkilçisi daha abstrakt məna kəsb edib və alınma sözlərdən də sifət düzəltməyə xidmət edib. Məsələn: *doubtful (L. dubito)* şübhəli, şübhə dolu; *merciful (F.merci, L. meces)* mərhəmətli, yumşaq.

- *ed* - suffiksi alman mənşəli olub, hələ qədim ingilis dilində işlənmiş və hal-hazırda da öz məhsuldarlığını itirməmişdir: Bu suffiks əsasən isimlərdən sifət düzəldir. Beləliklə, - *ed* suffiksi sözdüzəltmə funksiyası qazanıb. Müasir ingilis dilində *-ed* suffiksinin sözdüzəldici funksiyası demək olar ki, dəyişilməz qalmaqdadır. Məsələn: *aged, talented, gifted* və s.

- *ed* suffiksi sifətlərin başqa şəkilçisinə nisbətən daha məhsuldardır. Bu şəkilçinin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, o mürəkkəb sözlərin yaranmasında iştirak edir. Məsələn: *black-haired «qaraqaş», long-legged «uzunayaq», clean-handed «əlitəmiz; düzgün»* və s.

- Bir qayda olaraq - *ed* suffiksi konkret isimlərdən də sifətlər əmələ gətirir:

a) insan bədəninin bir hissəsi və ya xarici görünüşü. Məsələn: *haired -tüklü, toothed -dişli* və s.

b) heyvan, quş və bitkilərin bir hissəsi və ya xarici görünüşü. Məsələn: *homed- buynuzlu, winged-çanaqlı, leaved-yarpaqlı* və s.

*-ish* - suffiksi alman mənşəli olub, sifət göstəricisidir. İsmə və sifətə əlavə olunmaqla sifət əmələ gətirir. - *ish* suffiksi öz mənalarına görə müasir ingilis dilində məhsuldar şəkilçi hesab olunmur. Qədim ingilis dilində bu şəkilçi bir sıra isimlərə əlavə olunmaqla, ölkə, irq, milliyyət bildirib və hal-hazırda da öz funksiyalarını saxlamaqdadır. Məsələn: *Polish, Turkish, Scottish, Jewish* və s. (3)

Təkcə xüsusi isimlər, ölkə və millətlər deyil, başqa isimlər də - *ish* suffiksi ilə düzələ bilər, Məsələn: *childish*, *boyish, girlish və s.*

Bəzən *-ish* - suffiksi sifətlərə əlavə olaraq onlara rəng xarakteri verir.

Məsələn: *bluish, greenish, blackish, reddish* və s.

- *en* - suffiksi alman mənşəli, olub əşyanın nədən əmələ gəldiyini bildirir. Müasir ingilis dilində bu şəkilçi ilə düzələn sifətlər nisbətən azlıq təşkil edir və ona görə də qeyri-məhsuldar şəkilçi hesab olunur. Bu suffiks adətən isimdən sifət əmələ gətirir. Məsələn: *wooden — taxtadan hazırlanmış, golden — qızılı, ashen - gül rəngli* və s.

*-en* - suffiksinin qeyri-məhsuldar olmasına baxmayaraq, O. Jesperson bu fikirlə razılaşmış və bu şəkilçinin cənubi-qərb dialektində hələ də sərbəst surətdə nisbi sifətlər əmələ gətirdiyini qeyd edir. Məsələn: *glassen, steelen, papem* və s.

- *en* - sufifiksi ilə düzələn sifətləri də bu şəkilçi ilə düzələn fel və isimlərlə qarışıq salmaq olmaz. Məsələn: *deepen, widen (fellərdə), children, oxen (isimlərdə).*

- *less* — suffiksi alman mənşəli olub, müstəqil *leas* (müasir ingilis dilində *loose)* sözündən yaranıb. *Leas* sözü hələ qədim dövrlərdən mürəkkəb sifətlərin ikinci komponenti kimi işlənib. Məsələn: *banleas (boneless) - sümüksüz, beardleas (beardless) - saqqalsız və s.*

- *less* - suffiksi məhsuldar şəkilçi olub, əsasən isimlərə birləşərək sifət əmələ gətirir. Məsələn: *nameless, friendless* və s. isimlərə qoşulduqda bu şəkilçi «bir şeydən məhrum olan, malik olmayan» mənasını verir.

*-y* - suffiksi müasir ingilis dilində keyfiyyət mənasını verir: *noisy,icy, dirty, bishy, bloody* və s. Canlı danışıq dilində bu suffiks öz məhsuldarlığı ilə geniş yer tutur. *-y* - suffiksi müasir ingilis dilində çoxmənalıdır. Bu suffiks nəinki isim, hətta sifət və fellərə də qoşulur, isimlərdən sifət düzəldərkən *-y* – suffiksi «əlamət xüsusiyyət və ya bənzəyiş» mənasını verir. Məsələn: *bony - sümükləri çıxmış, çox arıq, furry - xəz dərili* və s.

*-y* - suffiksi felə birləşərək həmin feilin mənasını ifadə edir. Məsələn: *steeply—yuxulu, chatty — çoxdanışan, blowy – küləkli* və s.

*-y* — suffiksi rəngi bildirən sifətlərə birləşərək onun zəif əlamətini bildirir. Məsələn: *greeny -yaşımtıl, blacky - qaramtıl* və s.

- *y* - suffiksi həm də sifətlərə birləşərək əşyanın xarici görünüşünü və ya keyfiyyətini bildirir. Məsələn: *plumpy - dolu bədənli, coolly - sərin, dusky - tutqun, əsmər.* (1)

-*some* - suffiksi alman mənşəli olub, çoxmənalılıq kəsb edir.

-*some* - suffiksi isim, sifət və fel köklərindən sifət əmələ gətirir. Bununla yanaşı onların hər birinin öz xüsusi inkişaf yolu, mənası və işlənmə üsulları vardır.

-*some* - suffiksinin fonematik tərkibi dəyişmir. Aşağıdakı misalları nəzərdən keçirək: *wearisome - darıxdırıcı, tiresome — yorucu, troublesome əziyyətli, humoursome$_T$-şıltaq.*

Bu şəkilçi sifət göstəricisidir.

-*some* - suffiksi abstrakt isimlərə birləşərək müəyyən keyfiyyət, xarakter və s. bildirir. Məsələn: *bothersome - narahat, çalışqan, fearsome - qorxulu, toothsome — ləzzətli* və s.

-*ive* — suffiksi fransız mənşəli olub, «bir şeyə meylli, bir şeyin əlamətlərini əks etdirən» mənalarında işlənir və fellərdən sifət əmələ gəlir. Məsələn: *progressive, oppressive, attractive, inventive, offensive, impressive* və s.

Əgər -*ive*- suffiksini -*able* - suffiksi ilə müqayisə etsək, onda -*ive* - suffiksinin mənasının daha fəal, -*able* - suffiksinin isə qeyri-fəal, passiv olduğunun şahidi oluruq.

-*ive* - suffiksinə əsasən fransız mənşəli sözlərdə rast gəlirik ve beləliklə, deyə bilərik ki, bu suffiks qeyri-məhsuldardır.

-*ative* - suffiksinə -*ive* - suffiksinin variantı kimi baxmaq olar, -*ative* -şəkilçisi fellərə əlavə olaraq oxşar sifətlər əmələ gətirir. Məsələn: *demonstrative (to demonstrate felindən), contemplative (to contemplate felindən)* və s.

-*ative* – suffiksi vasitəsilə ingilis köklü sözlərdən də sifətlər əmələ gəlib. Məsələn: *talkative, demonstrative* və s.

*ly* - suffiksi ingilis dili tarixi boyunca həmişə məhsuldar şəkilçi hesab olunub. Bu suffiks həm keyfiyyətli sifət, həm də keyfiyyətli zərf əmələ gətirib. Bu suffiks qədim ingilis dilindəki *–lic* şəkilçisindən əmələ gələrək «görkəm, sima, sifət» mənasını verir.

-*ly* - suffiksi həm isim, həm də sifətlərə qoşularaq sifət əmələ gətirir.

İlk vaxtlarda -*ly* şəkilçisi ancaq ingilis mənşəli sözlərdən sifətlər əmələ gətirirdi. Sonradan isə bunlara alınma sözlər də əlavə olundu. Hər halda deməliyik ki, müasir ingilis dilində əksər sifətlər ingilis mənşəlidir.

Müasir ingilis dilində -*ly* suffiksi az məhsuldarlığı ilə fərqlənir. Daha məhsuldar şəkilçi ona sinonim olan -*like* suffiksidir.

-*ous(-ious)* - suffiksi fransız mənşəli olub, ingilis dilindəki -*ful* suffiksinin mənasına uyğun gəlir. Məsələn: *joyous (ful of joy), dangerous (ful of danger)* və s.

Bu suffiks əsasən isimlərin sonuna əlavə olunmaqla sifət əmələ gətirir. Bu suffiksin müasir ingilis dilində çox işlənməsinə baxmayaraq o məhsuldar suffiks hesab olunmur.

*ic*, *ical* - suffiksi latın mənşəli olub, əsasən elmi terminləri yaratmağa xidmət edir. Məsələn: *metallic, carbonic* və s.

Hər iki suffiks paralel işlənməklə sifətə konkret leksik məna verir. Məsələn: *historic event, historic speech, historical novel, historical film* və s.

- *an (-ian, -eon)* suffiksi latın mənşəli olub, ingilis dilinə fransız dilindən keçib. Bu şəkilçilər xüsusi isimlərdən, xüsusilə də coğrafi adlardan sifət əmələ gətirir. Məsələn: *Russian, European, American* və s.

- *ary* suffiksi əsasən isimlərdən sifətlər düzəldir. Məsələn: *legendary, elementary.*

Bu suffiksin əsasən bədii-ədəbi leksikaya məxsus olmasına baxmayaraq bəzən *-al* suffiksi ilə paralel işlədilir. Məsələn: *fractionary - fractional, fragmentary-fragmental* və s.

*-al* suffiksi ilə çoxlu miqdarda nisbi sifətlər əmələ gəlir. Bu şəkilçi ümumiləşmiş məna kəsb etdiyi üçün o qoşulduğu isimlə müxtəlif münasibətlərdə ola bilir. Məsələn: I wonder who it was defined mak as a rational animal (The Picture of Dorian Gray, p. 49).

- *esgue* suffiksi isimlərə birləşərək kökün ifadə etdiyi mənanı verir. Məsələn: *picturesque, sculpturesque* və s.

İngilis dilində suffikslərin təhlili» mövzusu tədris prosesində tələbələrə ingilis dilinin qrammatikasının morfoloji leksik özəlliyini açmaq üçün aktuallıq kəsb edir və böyük əhəmiyyətə malikdir.

## Ədəbiyyat:

1. A.Axundov. Ümumi dilçilik. Bakı, 1980, səh. 22-35.
2. K. Hacıyev «Azərbaycan dilində xüsusi nitq hissələri», Bakı, 1999, səh. 40-45.
3. Р.Г.Зятковская «Суффиксальная система современного английского языка». Москва, 1992, стр. 72-78.
4. Y.B.Antrushina“English Lexicology, Moscow, 1985, p. 12-13,18-32.
5. Ginsburg “A course in Modern English lexicology, Moscow, 1985, p. 28-55.

**С.Мамедова**

## Анализ суффиксов на английском языке

### Резюме

Как и во всех языках, простые и сложные словарные модели занимают особое место в английском языке. Появление новых слов, особенно новых, на основе новых моделей - это исторический процесс, который всегда существовал, роль языка в обогащении словарного запаса и нынешнее положение в терминологии неоспоримы. Современные англоязычные суффиксы более красочны и универсальны, чем те, которые составляют название. Англоязычные суффиксы относительно меньше, чем у латинских и французских оригиналов.

Современный английский может использоваться как прилагательное для разных речевых частей. Суффиксы указывают, какие атрибуты принадлежат грамматическому классу. В связи с этим анализ и изучение суффиксальной системы английского языка в процессе обучения обеспечивает более эффективную среду обучения для студентов. Студенты могут систематически узнавать, что создание новых слов в суффиксальной системе основано на общности и сложности, значениях отрицания и подтверждения с помощью суффиксальных систем. Учитель уточняет словарный запас, а также их специфические функции в процессе обучения и превращает его в предмет обучения. Это один из основных факторов в преподавании лексико-морфологической системы.

**S.Mamedova**

## Suffix Analysis in English

### Summary

As in all languages, simple and complex vocabulary patterns have a special place in the English language. The emergence of new words, especially new ones, on the basis of new models is a historical process that has always existed, the role of language in enriching the vocabulary and the current position in terminology is undeniable. Modern English suffixes are more colorful and versatile than those that make up the name. English suffixes are relatively smaller than Latin and French originals. Modern English can be used as an adjective for different speech parts. Suffixes

indicate which attributes belong to the grammatical class. In this regard, the analysis and study of the suffixal system of the English language in the learning process provides a more effective learning environment for students. Students can systematically learn that the creation of new words in a suffix system is based on commonality and complexity, the meanings of negation and confirmation using suffix systems.

The teacher clarifies the vocabulary, as well as their specific functions in the learning process and turns it into a subject of study. This is one of the main factors in the teaching of the lexical-morphological system.

**Rəyçi: Nadir Məmmədli**
**Filologiya elmləri doktoru, professor**